

# Ayaz MUSAYEV

Amansız ölüm qələm yoldaşımız Ayaz Musayevi aramızdan apardı.

Ayaz Qılman oğlu Musayev 1947-ci il fevralın 10-da Bakıda anadan olmuşdur. 1965-ci ildə orta məktəbi bitirib, həmin il Moskva Poliqrafiya İnstitutunun redaksiya-nəşriyyat fakültəsinə qəbul olunmuşdur. Birinci kursu bitirdikdən sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsində təhsilini davam etdirmişdir. Axşam şöbəsində təhsil almaqla yanaşı, Azərbaycan KP MK-nın Birləşmiş Nəşriyyat və Mətbəəsində fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. Daha sonra korrektor vəzifəsinə keçirilmişdir. 1970-1972-ci illərdə "Müxbir" jurnalında ədəbi işçi, 1972-ci ildən hərbi xidmətə çağırılana qədər Azərbaycan Teatr Cəmiyyətində baş məsləhətçi vəzifələrində çalışmışdır. 1973-1974-cü illərdə Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsində şöbə müdirinin müavini, 1974-cü ildən 2004-cü ilədək "İşıq" nəşriyyatında redaktor, böyük redaktor, şöbə müdiri vəzifələrində çalışmışdır. 2004-cü ildən Bakı Dövlət Universitetində dərs demişdir.

Ədəbi fəaliyyətə ötən əsrin 70-ci illərində başlamışdır. Publisistik yazıları və bədii tərcümələrlə mətbuatda müntəzəm çıxış etmişdir. Onun tərcüməsində Qılman İlkinin, Xalidə Hasilovanın əsərləri, fotoalbom və bukletlər rus dilində çapdan çıxmışdır.

İstedadlı yazıçı-tərcüməçi, səmimi təvazökar insan Ayaz Musayevin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 23 iyul.- S. 32.